1 - 2_Layout 1 29.12.2023 10:31 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 25 (664)
30 dekabr 2023-cü il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# ZƏFƏR MANDATI

## Prezidenti bu dəfə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan seçəcək

**"Azərbaycan" qəzetinin baş redaktor müavini, Əməkdar jurnalist İxtiyar Hüseynlinin müəllifi olduğu "Zəfər mandatı" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Azərbaycan vətəndaşları müstəqillik dövrünün 9-cu prezident seçkisində liderini müəyyənləşdirəcəklər.

Bu, yeni tariximizin dördüncü növbədənkənar prezident seçkiləridir. Amma budəfəki mahiyyət ilk iki seçkidən tam fərqlidir, yəni 1992 və 1993-cü illərin məlum situasiyalarının əksidir. Həmin dövrlərin növbədənkənar seçkiləri hərbi tənəzzülün, iqtisadi böhranın, siyasi təlatümlərin nəticəsi olaraq meydana çıxmış, ən əsası, ölkə rəhbərlərinin öz ali postlarından qaçmaları səbəbindən zərurətə çevrilmişdi.

2018-ci ilin aprel növbədənkənar seçkiləri isə Azərbaycana tarixinin ən qüdrətli dövrünü, ən möhtəşəm inkişafını yaşadan, ümummilli etimad qazanan Prezidentin siyasi qərarı ilə gerçəkləşmişdi.

2024-cü ilin 7 fevral növbədənkənar seçkilərinə isə tariximizin ən möhtəşəm Zəfərinin yaratdığı reallıqlar fonunda ortaya çıxan siyasi, iqtisadi, hüquqi, ən əsası, qlobal zərurətlər kontekstində gedirik.

Bu dəfə Prezidentə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan səs verəcək!

Prezident indi həm də savaşda qazandığı Zəfər mandatını ümummilli etimadla möhkəmləndirəcək!

### Yeni dövrün başlanğıcı

Seçkilərin növbədənkənar keçirilməsini şərtləndirən amillər sırasında postqələbə dövrünün gerçəklikləri xüsusi yer tutur. Vətən savaşındakı qələbə və antiterror tədbirlərinin nəticəsi Azərbaycanın bütövlüyünün və konstitusiya quruluşunun birmənalı təsbitini yekunlaşdırmaqla yanaşı, yeni dövrün başlanğıcı oldu.

Bu hansı dövrdür?

İlham Əliyev və onun şəxsində Azərbaycan:

- Qafqazın birmənalı siyasi, iqtisadi, hərbi qüdrətini təmin edir;
- Qafqazın sülh və təhlükəsizliyinin zəmanətverici amili olmaqla yanaşı, Yaxın Şərqdən Avropayadək geniş arealın ehtiyac duyduğu davamlı sabitliyə töhfə verir;
- Avropanın neft, qaz, "yaşıl enerji", ən nəhayət, hidrogen təminatında etibarlı tərəfdaşa çevrilir;
- Avrasiyanın yeni geosiyasi və geoiqtisadi "oyun qaydalarını" korrektə edir;
- Avrasiyada fövqəlqüvvələrə qarşı effektiv mübarizənin əsasını qoyaraq, sıralarını daim genişləndirən hərbi-siyasi faktor kimi tanınır;
- Qoşulmama Hərəkatındakı uğurlu təcrübəsi əsasında yeni siyasi-iqtisadi güc plaftorması yaradır;
- qlobal nüfuz sahibi olaraq, qlobal gücləri özü ilə hesablaşmağa məcbur edir;
- coğrafi xəritənin kiçik nöqtəsi, ancaq siyasi-iqtisadi xəritənin nəhəng ərazisidir;
- Avropa ilə Asiyanın böyük təhlükə və problemlə üzləşən iqtisadi-ticari əlaqələri üçün səmərəli marşrutu formalaşdırır;
- "dünya jandarmeriyası" sayılan ABŞ və onun avropalı tərəfdaşlarının qarşısında müstəqil siyasət yürüdür, qürurlu münasibət göstərir;
- milli dövlətçilik, milli təhlükəsizlik, milli inkişaf kimi istiqamətlərdə dünyanın ən yaxşı modellərindən birini yaradır və s.

### Seçkilər niyə önə çəkilir?

Göründüyü kimi, bütün sahələrdə İlham Əliyevin və Azərbaycanın həyata keçirdikləri siyasət, təşəbbüslər məhz qlobal səciyyə daşıyır, məmləkət miqyasından beynəlxalq səviyyəyə qədər əhəmiyyətliliyini qoruyur.

Dünyanın gözü indi Azərbaycanda və onun Liderindədir. Dostlarımız kimi düşmənlərimizin də sayı artıb.

Azərbaycan və onun Prezidenti ərazi bütövlüyünü heç bir kənar qüvvənin yardımı olmadan təmin edən və son onilliklərdə heç bir dövlətə qismət olmayan tarixi nailiyyətin müəllifidir.

İlham Əliyevin və onun dövlətinin qalib, məğrur, müstəqil duruşunu nümunətək qəbul edənlər kimi, bundan rahatsız olub, yeni savaş üçün bəhanə axtaranlar da var.

Eyni zamanda dövlətimizin və Prezidentin qarşısında daha geniş rəqib, əslində düşmən dövlətlər şəbəkəsi formalaşıb. Dünyanı dəfələrlə bölüşdürüb, indi yeni paylar həvəsinə düşən fövqəlgüclər həm öz maraqlarının Azərbaycan tərəfindən davamlı tapdalanmasının, həm də dünya erməniliyinin qisasını ölkəmizdən, xalqımızdan və Prezidentdən almağa cəhdlər edirlər.

Beləliklə, İlham Əliyev bu tarixi missiyasını həyata keçirmək üçün xalqdan yeni etimad mandatı almağa qərar verib.

### İslahatların yaratdığı zərurət

Növbədənkənar prezident seçkilərinin bir səbəbi də ölkədə aparılan genişmiqyaslı islahatların yaratdığı hüquqi, siyasi, iqtisadi tələblərlə bağlıdır.

Prezident İlham Əliyev strateji düşünərək mövcud maliyyə-iqtisadi duruma adekvat olan və qlobal çağırışlara cavab verən yeni islahatlar kursuna başlayıb. Son illər ərzində bu yönümdə aparılan islahatlar ilkin uğurlu nəticələrini verdi, ölkə iqtisadiyyatının bütün sahələrində, xüsusən də qeyri-neft sektorunda əsaslı canlanma yarandı və bu proseslər beynəlxalq ekspertlər tərəfindən "böhran şəraitində inkişaf" kimi dəyərləndirildi.

Bu şərait Prezidentdən təxirəsalınmaz vacib qərarların qəbulunu tələb edir. Seçkilərin önə çəkilməsi də yeni islahatlar kursunun vacib proqramlarının icrasını tez bir zamanda başlamaq üçün İlham Əliyevin xalqından yeni etimad mandatı almasına hesablanıb.

### İlham Əliyevin yolu

Prezident seçkilərinin əsas məğzi vətəndaşların siyasi alternativlər sırasında inam bəslədikləri namizədə səs verməsi və ən üstün etimadı qazananın qalib elan olunmasıdır. Bu həm də bir yarışdır.

Və bu yarışın son üç onillikdə qalibləri məhz müstəqilliyin, dövlətçiliyin, inkişafın alternativsiz təminatçısı olan siyasi kursunun təmsilçiləridir.

Prezidentə olan etimad ümummilli məna kəsb edir. İlham Əliyev qarşıdakı prezident seçkilərinə də bu misilsiz güc və yüksək siyasi potensialla - xalqın yeganə namizədi olaraq gedir.

Seçicilər bu aksiyada yalnız ictimai mövqelərini bildirməyəcəklər, həm də tarixin arxivindən hələ də baş qaldırmağa çalışan məlum qüvvələrə birdəfəlik yox deyəcək, Ulu Öndərin siyasi xəttinin alternativsizliyini növbəti dəfə təsdiqləyəcəklər.

**Xalq geriyə - xaosa, böhrana, fəlakətə deyil, sabaha - davamlı tərəqqiyə, yüksələn rifaha, qüdrətli dövlətə səs verəcək.**

**Xalq Zəfərə səs verəcək.**

**Yolumuz tarixin ən qüdrətli Azərbaycanını yaradan Liderlədir.**

**Yolumuz İlham Əliyevlədir.**

**Yolunuz, yolumuz daim aydın olsun, cənab PREZİDENT!**

# Daxili İşlər Nazirliyində əməliyyat müşavirəsi keçirilib



Daxili İşlər Nazirliyində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında əhalinin təhlükəsizliyinin təminatına dair onlayn formatda əməliyyat müşavirəsi keçirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov əməliyyat müşavirəsində asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliklə bağlı qarşıda duran vəzifələri və tapşırıqları diqqətə çatdırıb.

Nazir bayram günlərində daxili işlər orqanlarının şəxsi heyətinin gücləndirilmiş rejimdə xidmət edəcəyini, əhalidən daxil olan bütün çağırışlara dərhal və çevik reaksiya verilməsinin, naryad qruplarının fəaliyyətinin fasiləsizliyi, əhalinin narahatlığına səbəb ola biləcək halların aradan qaldırılmasının, hərəkətin intensiv olacağı küçə və prospektlərdə, magistral yollarda xidmətin nümunəvi təşkilinin vacibliyini diqqətə çatdırıb.

Əməliyyat müşavirəsində 2024-cü il fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkiləri ilə bağlı vətəndaşların seçki hüququnun təmin olunması məsələləri də müzakirə edilib.

Nazir V.Eyvazov seçki gününədək şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən, habelə 18 yaşı tamam olan vətəndaşların yeni sənədlərlə təmin olunması, eləcə də vətəndaşların yaşayış yeri üzrə qanunamüvafiq olaraq qeydiyyata alınmaları ilə bağlı zəruri tədbirlərin görülməsinə dair göstərişlər verib.

Müşavirədə iştirak edən daxili işlər orqanlarının rəhbər heyətindən respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində fəaliyyət nəzarətdə saxlanılmaqla, qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi tələb edilib.

**DİN-in Mətbuat xidməti**

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ



1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin Türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir.

2020-ci ilin 27 sentyabr – 9 noyabr tarixlərində 44 gün davam edən Vətən müharibəsi və 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən antiterror tədbirləri zamanı xalqımız Müzəffər Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşdi, torpaqlarımızın azadlığı uğrunda mübarizədə milli həmrəyliyin ən gözəl nümunəsini yaratdı. Əslində bu birliyin müəllifi də elə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin özüdür.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirirlər.

**Həmrəylik Gününüz mübarək!**

2_Layout 1 29.12.2023 11:51 Page 1



# TƏBİƏTİN DƏ KEŞİYİNDƏYİK

## Əkilən ağaclar Ulu Öndərin xatirəsini yaşadacaq

Daxili İşlər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə paytaxtın Qaradağ rayonu Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində keçirilən tədbirdə hər iki nazirliyin nümayəndələri, polis əməkdaşları və hərbi qulluqçular iştirak ediblər.



Ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək məqsədilə keçirilən aksiyada Eldar şamı əkilərək suvarılıb və onlara aqrotexniki qulluq göstərilib. Əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb, yaşıllıq zonasında təmizlik işləri aparılıb.

**DİN-in Mətbuat xidməti**

# ŞƏHİD VƏ QAZİ ÖVLADLARI BELARUSDA

## Nazir İvan Kubrakov: “Azərbaycan qəhrəmanlarının övladlarının respublikamıza səfərindən qəlbən məmnunam”

Belarus Daxili İşlər Nazirliyi vəzifə borclarını yerinə yetirərkən həlak olan və yaralanan Azərbaycan Respublikası daxili işlər orqanlarının əməkdaşlarının və hərbi qulluqçuların övladları üçün Minskə səfər təşkil edib.



Əvvəlcə maarifləndirici ekskursiya təşkil olunub. Uşaqlar Minsk və Belarusun tarixi şəxsiyyətləri barədə maraqlı faktlar əldə ediblər. Daxili işlər naziri İvan Kubrakov polis əməkdaşlarının və hərbi qulluqçuların övladları ilə görüşüb.

Gənc qonaqları salamlayan nazir DİN-in əməkdaşlarının Belarusun bütün qonaqpərvərliyini və görməli yerlərini göstərməyə çalışdıqlarını və onlar üçün zəngin proqram hazırladıqlarını qeyd edib: “Azərbaycan qəhrəmanlarının övladlarının respublikamıza səfərindən qəlbən məmnunam. Uşaqlar, siz də bizim övladlarımızsınız. İki ölkənin idarələri əməkdaşlara və onların ailə üzvlərinə dəyər verir, bilirlər ki, asayiş keşikçiləri yaxınlarının dəstəyi sayəsində ləyaqətlə xidmət edirlər”.



O, uşaqlara təhsillərində uğurlar, dost ölkədən olan həmkarlarına isə Vətənə sağ-salamat qayıtmalarını arzulayıb. Nazir bu cür qarşılıqlı səfərlərin praktikaya çevriləcəyinə əminliyini ifadə edib.

Görüş konsert proqramları və azərbaycanlı uşaqlara xatirə hədiyyələrinin təqdim olunması ilə başa çatıb.

**DİN-in Mətbuat xidməti**

# “DÖYÜŞ HAZIRLIĞINI YÜKSƏK SƏVİYYƏDƏ QORUYUB SAXLAMAQ ƏSAS VƏZİFƏMİZDİR”



12318 saylı hərbi hissənin xidməti nailiyyətləri, əzmkarlığı ilə fərqlənən xüsusi vasitələrin tətbiqi dəstəsi 2023-cü ilin ümumi inspeksiya yoxlamasının nəticələrinə görə hərbi hissənin bölmələri arasında qabaqcıl yer qazanıb.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin müavini-qərargah rəisi mayor Zamiq Məmmədov dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkarlığın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O, xidmətini Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini nəzərimizə çatdıraraq, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli, tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi.



Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də yeni gəlmiş hərbi qulluqçuların kollektivə uyğunlaşmaları da önəm verilən əsas məsələlərdir. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini kapitan Ruslan Ağayevin fəaliyyəti müsbət xarakterizə edilir.

Mayor Z.Məmmədov dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələn, digər hərbi qulluqçulara nümunə olan kapitan Nasimi Həsənov, gizirlər Müşfiq Mirverdizadə, Tarzan Xəlilov, çavuş Tofiq Xəlilov və baş əsgər Elxan Məmmədzadənin adlarını çəkdi. O, hərbi xidmətdə əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Şahin Cəfərzadə**

# XÜSUSİ TƏYİNATLI DƏSTƏNİN ŞƏXSİ HEYƏTİ İSTƏNİLƏN DÖYÜŞ TAPŞIRIĞINI İCRA ETMƏYƏ QADİRDİR





Digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirən hərbi qulluqçularımızın silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

99713 saylı hərbi hissənin xüsusi təyinatlıları da qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində fədakarlıq göstərirlər. Onların hərtərəfli hazırlıqları bunu deməyə əsas verir. İstər Vətən müharibəsində, istərsə də antiterror tədbirləri zamanı xüsusi təyinatlıların göstərdikləri şücaət hər birimizə məlumdur.

Dəstə komandirinin vəzifəsini müvəqqəti icra edən kapitan Ceyhun Əsgərovun sözlərinə görə, hazırda işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik xidmətinə cəlb olunan xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları, sözün əsl mənasında, öz layiqli xidmətləri ilə əzmkarlıq nümayiş etdirirlər.



Vəzifə borclarından irəli gələn tələblərdən danışan zabit hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşğələlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçular təlimlər zamanı qarşıya qoyulmuş tapşırıqları məsuliyyətlə icra edirlər.

O, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, yüksək intizamın möhkəmləndirilməsi və sayıqlığın artırılması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi üçün əlindən gələni əsirgəmir.



Şəxsi heyətin gündəlik fəaliyyəti Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Dözümlülüyü artırmaq məqsədilə fiziki hazırlıq məşğələsində qısa və uzaq məsafələrə qaçış, həmçinin manevələr zolağının keçilməsi məşq etdirilir.

Xüsusi təyinatlı dəstənin tərkibində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi relyefində və hava şəraitində məşğələlər keçirilir. Təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu deyən komandir qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir.

Hərbi qulluqçulara düzgün dünyagörüşünün və mənəvi-psixoloji keyfiyyətlərin aşılanmasında xüsusi təyinatlı bölmə komandirinin tərbiyə işləri üzrə müavini mayor Malik Quliyevin əməyi danılmazdır. Hər birimizə məlumdur ki, şəxsi heyətin yüksək döyüş hazırlığını şərtləndirən əsas cəhətlərdən biri də mənəvi-psixoloji durumunun sabit olmasıdır. Belə ki, sözügedən sahədə vacib məsələ ictimai-siyasi hazırlıq məşğələsi və tərbiyə işinin təşkilində şəxsi heyətlə vətənpərvərlik mövzusunda söhbətlərin aparılmasıdır. Eyni zamanda tərbiyə işinin təşkili istiqamətində fərdi yanaşma prinsipinə üstünlük verən mayor M.Quliyev hərbçilərin xidmətdə və xidmətdən sonrakı fəaliyyətlərini diqqətdə saxlayır. Onun fikrincə, tabelikdə olanlara qarşı tələbkarlıq və qayğının vəhdətliyi ilə yanaşı, hər bir hərbçinin psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi üçün fərdi söhbətlərin aparılması çox önəmlidir. Əlavə olaraq, şəxsi heyət arasında nümunəvi xidmət edən hərbi qulluqçulardan gizirlər Cabir Əliyev, Şamil Əhmədov, kiçik gizir Vəfadar Əliyev, baş çavuş Orxan Cəfərov və çavuş İsgəndər İsayev üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir və xidmət təcrübələrini hərbi qulluqçularla bölüşürlər.

**kapitan Nigar Ağayeva**

# KOMENDANT BÖLÜYÜ ETİBARLI MÜHAFİZƏNİ TƏMİN EDİR



Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların mühafizə və müdafiəsi nəzərdə tutulur. Bu baxımdan komendant bölüyü 25032 saylı hərbi hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.

Bölük komandiri baş leytenant Murad Söhbətli qarşıya qoyulan mühüm tapşırıqların əhəmiyyətini, döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuların digərlərindən fərqləndiyini diqqətə çatdırdı. Bildirdi ki, məsuliyyətli, eyni zamanda



mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən bölük komandiri vurğuladı ki, keçirilən məşğələlər şəxsi heyətin bilik və bacarığının təkmilləşdirilməsinə, hərbi savadının artırılmasına təkan verir.

Bölüyün hərbi qulluqçularının asudə vaxtlarının səmərəli təşkil olunmasını bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Gündüz Eyvazlı hər zaman diqqətdə saxlayır. Burada şəxsi heyətin istirahəti üçün lazımi şərait yaradılıb.



Bölük komandiri hər zaman çalışqanlığı, intizamı və sayıqlığı ilə seçilən hərbi qulluqçulardan leytenant Rəmal Vahabov, gizir Namiq Məmmədov, baş əsgərlər Elşən Abdullayev və Rahib Əhmədovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

3 - 2_Layout 1 29.12.2023 10:39 Page 1



# HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ VƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİNƏ EKSKURSİYA TƏŞKİL OLUNUB

Şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsi, xidmətə yeni başlayan hərbi qulluqçuların vətənpərvər ruhda tərbiyə edilməsi Daxili Qoşunların bütün hərbi hissələrində olduğu kimi, 25032 saylı hərbi hissədə də daim diqqətdə saxlanılır. Bu baxımdan şəxsi heyətin xidmət apardığı ərazinin muzeyləri və tarixi abidələri ilə yaxından tanış olması üçün gəzintilər təşkil edilir.




Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Bilal Hacıyev bildirdi ki, Vətənimizin qədim tarixini, o cümlədən igid sərkərdələrimizin qəhrəmanlıqlarla zəngin həyat və fəaliyyətlərini dərindən öyrənmək hər bir əsgərin mənəvi borcudur. Hərbi qulluqçuların vətənpərvərlik, ümumbəşəri dəyərlər və Azərbaycan xalqının qədim milli adət-ənənələri ruhunda tərbiyə olunmaları məqsədilə belə tədbirlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Qeyd olunan hərbi hissədə xidməti ezamiyyətdə olarkən sözügedən tədbirlərin təşkilində iştirak etdik. Polkovnik-leytenant B.Hacıyevin rəhbərliyi ilə xidmətə yeni başlayan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının gəzintisi üçün ayrılmış avtobus ilk olaraq Şirvan Şəhər Tarix-Diyarşünaslıq Muzeyinə doğru istiqamət aldı.

Muzey haqqında hərbi qulluqçulara geniş məlumat verildi. Qeyd olundu ki, muzey 1980-ci ilin aprel ayının 22-dən etibarən fəaliyyət göstərir. Üç hissədən ibarət olan muzeyin birinci zalı şəhərin tarixi, inzibati-ərazi bölgüsü, ictimai-siyasi həyatı, sənayesi ilə tanışlığı özündə əks etdirir. Burada hərbi qulluqçulara şəhərin tarixi barədə danışıldı. Bildirildi ki, təqribən XIX əsrin sonlarında şəhərin yerində Ərəbşahverdi kəndinin əsası qoyulub. 1930-cu ildə isə Əli Bayramlı rayonu yaradılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 may 2008-ci il tarixli Sərəncamı ilə Əli Bayramlı adı dəyişdirilərək Şirvan adlandırılıb. Daha sonra Şirvan şəhərinin sənaye şəhəri kimi inkişafından bəhs olundu.



Birinci zalda həmçinin müharibə mövzusuna ayrıca guşə həsr olunub. Burada İkinci Dünya müharibəsi, Birinci Qarabağ və 44 günlük Vətən müharibələrində iştirak edən hərbi qulluqçuların, bununla yanaşı, milli qəhrəmanlarımızın sənədləri, əşyaları, fotoşəkilləri ekspozisiyaya daxildir.

Bundan əlavə, birinci zalın sağ tərəfində yerləşən vitrinlərdə şəhərin yaradıcı insanlarının əsasən tarixi mövzuda və bədii üslubda yazılan kitabları nümayiş etdirilir.

Şəxsi heyət muzeyin ikinci zalında tarixi eksponatlarla tanış oldu. Bildirildi ki, hazırda muzeydə nümayiş etdirilən eksponatlar Şirvan şəhərinin zəngin tarixini, mədəniyyətini, adət-ənənələrini əks etdirir. Burada arxeoloji qazıntılar zamanı tapılmış daş dövrünə aid sümükdən hazırlanmış bıçaqlar, sənduqələr, çəkiclər, antik əşyalar, tunc dövrünə aid silahlar və qadın bəzək əşyaları, məişətdə istifadə olunan şirli və şirsiz saxsı qablar xüsusi maraq doğurur. Ekspozisiyada nümayiş etdirilən misgərlik nümunələri, əmək və məişət əşyaları da orta əsrlərə aiddir. Müxtəlif materiallardan hazırlanmış bəzək əşyaları, qadın geyimləri, kəmər və toqqalar, ətirqabılar və s. şəhərin zərgərlərinin əl işləridir.

Müasir dövrə aid olan üçüncü zalda isə şəxsi heyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci və ikinci dövrü, dahi şəxsiyyətin, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şirvan şəhərinə səfərləri barədə ətraflı məlumatlandırıldı.



Muzeydən sonra hərbi qulluqçuların növbəti ekskursiyası Şirvan şəhərindəki Heydər Əliyev Mərkəzinə oldu. Hərbi qulluqçulara burada Ümummilli Lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolunu, dövlətçiliyimizin xilası naminə çoxşaxəli fəaliyyətini əks etdirən sənədli materiallar, həmçinin Ulu Öndərin və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Şirvan şəhərinə səfərləri zamanı çəkilmiş fotoşəkillər nümayiş etdirildi.

Sonda 44 günlük Vətən müharibəsində iştirak edən Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və qalibiyyəti haqqında söhbət aparıldı, hərbi qulluqçularımızı maraqlandıran suallar cavablandırıldı.

Hərbi qulluqçular həm muzey, həm də mərkəzdən zəngin təəssüratlarla ayrıldılar.

**kapitan Xədicə Hacızadə**

---

*Şəhidlərimiz*

# DÖYÜŞÇÜ ÖMRÜNÜN MÜHARİBƏ SINAĞI VƏ ŞƏHADƏT ZİRVƏSİ

Taleyinə şərəfli döyüş yolu və şəhadət imtahanı yazılmış oğulları xalqımız heç vaxt unutmayacaq. Onlar od-alovlu səngərlərdə canları və qanları bahasına isbat etdilər ki, Vətən sevgisi, düşmənə qarşı nifrət, habelə qisas hissləri ölümdən güclüdür. Məhz belə igidlərin sayəsində bu gün qalib ölkə və yenilməz xalq adlanırıq. Döyüş ruhunun daşıyıcısı olan ordunun keçə bilməyəcəyi sədd, dəf etməyəcəyi maneə, diz çökdürməyəcəyi düşmən yoxdur. Rəşadətli ordumuz Vətən müharibəsi, eləcə də antiterror tədbirlərində öz missiyasını ləyaqətlə və peşəkarlıqla yerinə yetirib. İşğalçı və fərari erməni ordusu isə üzərinə məğlub damğasını götürməyə məcbur qalıb.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müəllifi olduğu “Qarabağ Azərbaycandır!” şüarı ilə ön cəbhədə hücuma atılan və Vətən naminə həyatını qurban verən hərbi qulluqçularımızın hər biri hərbi zəfərimizə layiqli töhfə verib.

Vətən müharibəsi şəhidlərinin siyahısında əsgər Vəliyev Fərid Güloğlan oğlunun da adı var. Şəhidin ömür yolu haqqında məlumatları ailəsinin və silahdaşlarının köməyi ilə topladım, həmçinin bir sıra rəsmi sənədləri də nəzərdən keçirdim.

O, 1993-cü il sentyabrın 1-də Beyləqan rayonunun Əhmədli kəndində doğulub. Vəliyevlər ailəsi orada yaşayır. Güloğlan Vəliyev və Sevinc Vəliyeva üç oğul övladı böyüdərək boya-başa çatdırıblar. Fəridin qardaşları Allahqulu və Cavid ondan yaşca kiçikdirlər. Ailə başçısı G.Vəliyev kənddə vaxtilə texniki təhlükəsizlik üzrə mühəndis işləyib, Sevinc xanım isə müəllimdir, doğma yurdlarındakı orta məktəbdə şagirdlərin təhsili və tərbiyəsində onun əməyi var. Allahqulu Əhmədli kəndində yerləşən Xələc (bu məkanın tarixi adıdır, bəzi mənbələrdə və qurumlarda Xalac yazılır, yerli sakinlər arasında hər iki ad deyilir) dəmiryol stansiyasının növbətçisi, Cavid isə 2 nömrəli Bakı Baza Tibb Kollecinin tələbəsidir. Doğmalarının sözlərinə görə, Fərid xaraktercə mehriban, hövsələli, qayğıkeş, diqqətli, vədinə sadiq, zəhmətə qatlaşan gənc olub. Yaşadıqları evin həyətyanı sahəsində əkinçiliklə məşğul olan valideynlərinə öz köməyini əsirgəməyib. El arasında ədəbli davranışı, sağlam həyat tərzi ilə həm yoldaşlarına, həm də qardaşlarına nümunə göstərilib. Yeniyetmə vaxtından idmanla maraqlanıb, fiziki hazırlığını artırmaq üçün məşqlər edib.

Fərid şəhid Yadigar Səlimov adına Əhmədli kənd əsas orta və şəhid İbadət Ələşrəfov adına Xalac tam orta məktəblərində təhsil alıb. Orta məktəbdə müəllimləri ona vətənpərvərlik əqidəsini aşılayıblar. Müxtəlif fənlər üzrə çalışqanlığı ilə seçilib. Məktəbli olduğu dövrdən hərbçi peşəsinə rəğbət bəsləyib.

2011-ci ilin oktyabr ayında Fərid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Bakıda yerləşən “N” saylı hərbi hissəsində sülhməramlı bölmədə xidmət keçib. Əsgər olaraq hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2013-cü ilin aprel ayında ehtiyata buraxılıb.



Hərbçi peşəsinə rəğbəti və marağı səbəbindən o, bir müddət sonra hərbi xidmətə qayıtmağa qərar verib. Bu məsələdə valideynlərinin xeyir-duasını alıb. Onun xidmətə qəbulla bağlı müraciəti Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının komandanlığı tərəfindən müsbət cavablandırılıb. 2014-cü ilin oktyabr ayının 31-dən etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun xidməti itlərin tətbiqi yarımqrupunun heyvan təlimçisi-atıcısı, həmin qrupun atıcısı, həmçinin uğurla imtahan verərək, xüsusi təyinatlı dəstəyə keçirilməklə xüsusi həmlə qrupunun heyət nəfəri vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Xidmət etdiyi bölmələrdə silahdaşlarının hörmətini qazanıb.

Təlimlər və məşğələlər zamanı döyüş hazırlığının yüksəldilməsini, peşəkar vərdişlərinin təkmilləşdirilməsini daim diqqətdə saxlayıb, ona təhkim olunan silahlardan, habelə xüsusi vasitələrdən məharətlə istifadə etməyi bacarıb. Qarşıya qoyulan tapşırıqların icrasına, funksional vəzifələrinə məsuliyyətlə yanaşıb.

12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri polkovnik-leytenant Anar Rizvanov Vətən müharibəsi zamanı erməni işğalçılarına qarşı döyüşüb, tabeliyindəki şəxsi heyətdən 9 nəfər şəhidlik zirvəsinə ucalıb. Bu şəhidlərdən biri də Fəriddir. Həmişə şəhidlər barədə həm qürur, həm də kədərlə danışan komandir bildirdi ki, Fərid intizamlı, ləyaqətli, əzmkarlığı ilə fərqlənən, verilən tapşırıqlara cavabdehlik hissi ilə yanaşan, peşəsinə bağlı, bilik və bacarıqlarını inkişaf etdirmək üçün fəal çalışan, silahdaşlarının uğurlarına sevinən, onlar hər hansı bir çətinliklə üzləşdikdə köməklərinə birinci gəlməyə can atan, hərbi sirri qoruyan, qoşunların nüfuzunu uca tutan xüsusi təyinatlı olub. Müsahibim dedi ki, Fərid bəzi beynəlxalq, o cümlədən ölkə əhəmiyyətli idman tədbirlərində ictimai asayişin və təhlükəsizliyin mühafizəsi, bundan əlavə, koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə xidmətə cəlb edilib.

Polkovnik-leytenant A.Rizvanov diqqətə çatdırdı ki, Vətən müharibəsi zamanı dəstənin şəxsi heyəti əvvəlcə 16077 saylı hərbi hissəyə göndərilib. Orada qaldıqları müddətdə döyüş tapşırıqlarının icrasına hazırlıq görülüb. 2020-ci ilin oktyabr ayının ortalarında 16077 saylı hərbi hissədən Cəbrayıl rayonuna gediblər. Həmin vaxt ön cəbhənin bütün istiqamətlərində döyüşlər səngiməyərək daha da şiddətlənib. Müdafiə Nazirliyinin tərkibindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Daxili Qoşunların xüsusi təyinatlıları müxtəlif döyüş əməliyyatlarına qatılıblar. 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçularına öncə Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilən ərazilərinin müdafiəsi, bununla yanaşı, ələ keçirilən bəzi hərbi obyektlərin mühafizəsi tapşırılıb. Döyüş zonasına gəldiyi gündən Fərid torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanıb, mühafizəsi həvalə edilən hərbi obyektləri, qənimət götürülən çoxlu sayda silah-sursatı, texnikanı sayıqlıqla qoruyub.

Oktyabr ayının sonunda digər xüsusi təyinatlı bölmələrlə birlikdə Xocavənd rayonunun Hadrut qəsəbəsində toplanıblar. Orada Şuşa şəhərinin işğaldan azad olunması üzrə döyüş əməliyyatına cəlb edilmələri barədə tapşırıq qarşıya qoyulub. Beləliklə, Şuşa şəhərinə doğru avtomobil karvanı ilə hərəkətə başlayıblar. Xocavənd rayonunun ərazisində karvan düşmən artilleriyası tərəfindən atəşə tutulub. Qruplarla piyada şəkildə hərəkəti davam ediblər. Bir neçə gün ərzində Xocavənd və Xocalı rayonlarında sızma fəaliyyətini yerinə yetirərək, dağlıq-meşəlik ərazilərdən keçməklə Şuşaya məsafəcə yaxınlaşıblar. Şuşa ətrafındakı yüksəkliklər və yollar uğrunda ağır döyüşlərin gedişində işğalçıların müqaviməti qırılıb, atəş nöqtələri susdurulub, mühüm mövqeləri uğurlu həmlələrlə alınıb. Cəsurluqla vuruşan Fəridin son döyüşü noyabrın 4-də, Şuşa-Laçın yolu istiqamətində olub.

12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət etmiş, hazırda 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini kapitan Bilal Məmmədov da Vətən müharibəsi iştirakçısıdır. O, məlumat verdi ki, Fəridi 2018-ci ilin avqust ayından tanıyıb. Dəstədə qrup komandiri olarkən tabeliyində xidmət etmiş xüsusi təyinatlının təlim-tərbiyəsi ilə fərqləndiyini söylədi. Vətənə, hərbi anda sadiq hərbi qulluqçu kimi yaddaşında qaldığını vurğuladı. Zabitin sözlərinə görə, Fərid ön cəbhədə bütün çətinliklərə və təhlükələrə layiqincə sinə gərib. Pulemyot köməkçisi idi, avtomatla silahlanıb, əlavə olaraq sursat daşıyıb. Yükü ağır olsa da, buna dözüb, sursatı daşımaq üçün heç kəsə verməyib. Silahdaşlarına atəş dəstəyi məqsədilə pulemyot köməkçisi kimi çevik hərəkət edib, düşmənin üzərinə cəsarətlə irəliləyib. Noyabrın 4-də Şuşa-Laçın yolu üzərindəki vacib yüksəkliklərdən



birinə hücuma keçiblər. Hücum ermənilərin təchizat yolunu kəsmək, bu ərazidə möhkəmləndirilmiş mövqelərinə yiyələnmək məqsədi daşıyıb. Döyüş zamanı düşmən dronlar vasitəsilə müşahidə apararaq döyüşçülərimizin yerləşmə koordinatlarını öz artilleriya bölmələrinə ötürüb. Beləcə, onlar ermənilər tərəfindən müxtəlif çaplı artilleriya və atıcı silahları ilə atəşə məruz qalıblar. Fərid yaxınlıqda partlayan top mərmisi qəlpələrindən yaralanıb, hücum davam etdiyindən o, bu vəziyyətdə silahdaşlarından aralı düşüb, təxliyyə qrupu isə sıx atəş altındakı əraziyə vaxtında gələ bilməyib. Bu səbəbdən xüsusi təyinatlının həyatını xilas etmək mümkün olmayıb.

16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Aydın Babayev vaxtilə 12318 saylı hərbi hissədə eyni vəzifədə xidmət edib. Vətən müharibəsində vuruşmuş hərbi qulluqçudur. Aydın söylədi ki, Fəridin yarımqrup komandiri olub, onun əsl xüsusi təyinatlı kimi xidmət və döyüş yolu keçdiyini bildirdi. Döyüşlərdə geriyə bir addım da olsa atmayıb.

Yarımqrup komandirinin dediyinə görə, Fərid Şuşaya qədəm basmağı çox arzulayıb. Şuşanın azad olunmasına bir neçə gün qalmış şəhadətə yüksəlib. Şuşa-Laçın yolu üzərindəki yüksəklik uğrunda döyüş uğurla başa çatdıqdan sonra silahdaşları onun şəhid olması xəbərindən sarsılıblar. Təxliyyə qrupu nəşini Şuşa-Laçın yolunun alt hissəsindəki dərədən götürüb.

Vətən müharibəsi iştirakçıları: qazi, ehtiyatda olan baş çavuş Qüdrət Əzizov və 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunun sürücüsü baş çavuş Əzizağa Abdullah oğlu da Fəridlə bağlı xatirələrini mənimlə bölüşdülər. Müharibənin sərt üzünü görmüş Qüdrət və Əzizağa Fəridin etibarlı silahdaş olduğunu dedilər. Döyüşlərdə öz nikbinliyi və qorxmazlığı ilə yoldaşlarını da ruhlandırıb. Qüdrət pulemyotçu olub və köməkçisi Fəridlə birlikdə düşmənə tutarlı atəş zərbələri endiriblər. Silahdaşları işğalçıları darmadağın etməklə Fərid və digər şəhidlərimizin qisasını alıblar.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 14 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Fəridin Şuşada hərbi əməliyyat nəticəsində bud arteriyasının travması, qəlpələrlə zədələnmələr səbəbindən şəhid olduğu faktı öz əksini tapıb. Ancaq sənəddə hərbi qulluqçumuzun ölüm tarixi 8 noyabr 2020-ci il yazılıb.

2020-ci il noyabrın 12-də şəhidin nəşi ailəsinin yaşadığı ünvana gətirilərək Beyləqan rayonunun Əhmədli kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər F.Vəliyev ölümündən sonra “Vətən uğrunda” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Fərid öz nəslinin yeganə şəhididir. Subay idi. Əhmədli kəndindən 7 nəfər Vətən naminə şəhidlik zirvəsinə ucalıb. Müğənni Vəfa Şərifova tərəfindən kənddə Fəridin adına bulaq inşa etdirilib. Bununla yanaşı, kənddə xüsusi təyinatlının şəkli əks olunan plakat quraşdırılıb. Ailəsinin yaşadığı evdə isə xatirə guşəsi düzəldilib. Xalac tam orta məktəbinin önündə şəhid məzunların xatirəsinə abidə yaradılıb. Məktəbin 11a sinfinə döyüşçünün adı verilib.

Müəlliflər Esmira Günəşin “Qürur yerimiz”, “Zirvəyə ucalanlar”, “Cənnətin sakinləri”, Ramil Hikmətin “Beyləqan şəhidləri” kitablarında, dövri mətbuatda Fəridə həsr edilən məqalələr və şeirlər dərc olunub. Ayrı-ayrı televiziya kanalları, sosial şəbəkələrdə hərbi qulluqçumuzun ömür yolu işıqlandırılıb, haqqında videoçarx hazırlanıb.

Ön cəbhədən sonuncu dəfə evə zəng edəndə hal-əhval tutaraq ondan narahat olmamağı, qalibiyyətlə qayıdacağını deyib. Qardaşı Allahquluya mesaj yazaraq valideynlərindən və kiçik qardaşları Caviddən muğayat olmağı tapşırıb.

Şəhidə həsr olunan şeirlərdən birində aşağıdakı misralar var:

***Vətən oğlu, səninlə qürur duyur millətin,***
***Sən qəhrəman oğlusan, fəxrisən bu dövlətin.***

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 29.12.2023 10:51 Page 1



# 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda Azərbaycan Respublikasının beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verməsi qeyd olunub.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

Bundan əlavə, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun, eləcə də



Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunması sərəncamda öz əksini tapıb. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Beləliklə, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü il Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Bununla yanaşı, sərəncamın 2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

**Mətbuat xidməti**

# NARKOMANİYA CƏMİYYƏTİN SOSİAL FACİƏSİDİR

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır.

Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib.



Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının Daxili işlər naziri tərəfindən təsdiq edilmiş 16 avqust 2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

12318 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi mayor Şahin Şirinov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.



Mayor Ş.Şirinov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil olunduğunu da bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Zabit görülən işlərdə yeməkxana rəisi baş çavuş Vüsal Əliyevin zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında işçi - aşpazlardan Səlfinaz Eyvazovanın, Sevinc Məmmədovanın, Sevinc Əliyevanın və Nuridə Səfərovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

# PEŞƏKAR SÜRÜCÜLÜK ÜZRƏ TƏLİMATÇI

Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında, verilən tapşırıqların uğurla yerinə yetirilməsində, şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında daşınmasında peşəkar sürücülərin rolu böyükdür. Belə sürücülərdən biri də vəzifələrinin öhdəsindən layiqincə gələn intizamlı hərbi qulluqçu baş çavuş Süleyman Süleymanovdur.

O, 1992-ci ilin yanvar ayının 10-da Sabirabad rayonunun Şıx Salahlı kəndində anadan olub. 1998-2009-cu illərdə doğulub boya-başa çatdığı kəndin tam orta məktəbində təhsil alıb. 2010-cu ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb və 2011-ci ilin iyul ayınadək Müdafiə Nazirliyinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki işlərdə çalışıb.



2016-cı ilin iyun ayında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qəbul olunub. Hazırda 25032 saylı hərbi hissənin sürücü və kiçik mütəxəssis hazırlayan tədris bölüyünün sürücülük üzrə təlimatçısı vəzifəsində xidmətini uğurla davam etdirir. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən Süleyman hissə komandanlığının etimadını və yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Tapşırıqları vaxtında və düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə dəfələrlə mükafatlandırılıb.

**kapitan Xədicə Hacızadə**

*İdman*

# İDMAN KOMANDASININ HƏRBİ QULLUQÇUSU ALMANİYADA BAYRAĞIMIZI UCALTDI

Daxili Qoşunların İdman komandasının hərbi qulluqçuları mütəmadi olaraq dünya idman arenalarında həm xidmət etdikləri qurumu, həm də Vətənimizi layiqli şəkildə təmsil edirlər. Onların uğurları barədə lazımi materialları davamlı olaraq qəzetimizin səhifələrində yerləşdiririk. İdman komandasının artıq bir ənənə halını alan qələbə xəbərlərinə ilin son ayında daha biri əlavə olundu.

Dekabr ayının 6-dan 12-nə kimi Almaniyanın paytaxtı Berlin şəhərində kikboksinq idman növü üzrə keçirilən beynəlxalq turnirdə ölkəmizi uğurla təmsil edən daxili qoşunların idman komandasının atıcı-idmançısı əsgər Qəşəm Məmmədov 1-ci yerə sahib olub.

Qeyd edək ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan, 28 idmançının iştirak etdiyi turnirdə 81 kq çəkidə tatami üzərinə çıxan cəngavərimiz qələbəni təmin edib. Bundan əlavə, Qəşəm cari il noyabrın 8-dən 26-na kimi Portuqaliyanın Albufeira şəhərində keçirilən, 70 ölkədən 1360 idmançının iştirak etdiyi dünya çempionatında 3-cü yerə layiq görülüb.

Məlumat üçün bildirək ki, əsgərimiz dəfələrlə Azərbaycan çempionu adını qazanıb və müxtəlif beynəlxalq yarışların qalibi olub. 2019-cu ildə yeniyetmələr arasında keçirilən Avropa çempionatında



birinci yerə, böyüklər arasında isə 3-cü yerə çıxıb. 2021-ci ildə dünya çempionatının gümüş, 2022-ci ildə isə İslam Oyunlarının bürünc mükafatçısı olub.

O, 2003-cü il iyulun 12-də Rusiya Federasiyasının Xabarovsk şəhərində doğulub. 2022-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nizami Rayon İdarəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏZİFƏLƏRİNİN İCRASINA MƏSULİYYƏTLƏ YANAŞAN İNTİZAMLI ƏSGƏR

Əsgər Amil Vəliyev 12318 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən, nizam-intizamlı və bacarıqlı hərbi qulluqçularındandır. Öz vətənpərvərliyi ilə seçilən hərbi qulluqçu komandirlərinin, əsgər yoldaşlarının hörmət və etimadını qazanıb.

O, 2002-ci ilin may ayının 18-də Tovuz rayonunun Dondar Quşçu kəndində anadan olub. 2019-cu ildə doğma kəndində yerləşən tam orta məktəbin 11-ci sinfini bitirib. 2019-2023-cü illərdə Bakı Dövlət Universitetində ali təhsil alıb.

2023-cü ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədən sonra xidmətini 12318 saylı hərbi hissənin komendant bölüyündə davam etdirir. Öz üzərində çalışan Amil hərbi biliklərə böyük maraq göstərir. Döyüş xidmətində sayıqdır, təhlükəsizlik qaydalarına ciddi riayət edir. Nizamnamələrin tələblərini düzgün yerinə yetirir. Bunun nəticəsidir ki, əsgər A.Vəliyev istənilən çətinliyin öhdəsindən lazımınca gəlir. Xidmətin məsuliyyətini dərindən dərk edərək üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşır.



Sıralarımızda onun kimi məsuliyyətli və bacarıqlı hərbi qulluqçular çoxdur.

**12318 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

## "Tunga" yerüstü döyüş robotu xidmət üçün hazırdır

ASELSAN şirkətinin inkişaf etdirdiyi "Tunga" yerüstü döyüş robotu Türkiyə Ordusuna və təhlükəsizlik qüvvələrinə dəstək göstərmək üçün xidmətə hazırdır. Bu barədə "Poliqon" ASELSAN şirkətinə istinadən xəbər verib.

Qeyd edək ki, uzaqdan idarə olunan və avtonom şəkildə fəaliyyət göstərə bilən "Tunga" orta sinif 2-ci səviyyə yerüstü döyüş robotudur. O döyüş və logistika missiyalarını yerinə yetirmək üçün hazırlanıb.

Döyüş robotunun uzunluğu 240 sm, eni 210 sm, hündürlüyü 200 sm və ağırlığı



3000 kiloqramdır. Uzaqdan idarəetmə mənzili 5 km və maksimum hərəkət sürəti 20 km/saat olan "Tunga"ya hibrid mühərrik güc verir. "Tunga" 50 sm dərinliyindəki sudan keçə, 80 sm-lik xəndəkləri, 40 sm-lik dik maneələri asanlıqla aşa, 60 faizlik dik və 30 faizlik yan əyimli ərazilərdə rahatlıqla hərəkət edə bilir.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan polkovnik-leytenant Maqsud Məmmədovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı gizir Emil Quliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

64412 saylı hərbi hissənin komandanlığı gizir Səməd Səfərliyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000